# SAĞLAMLIQ, ƏMƏYİN TƏHLÜKƏSİZLİYİ, TƏHLÜKƏSİZLİK VƏ ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ SİYASƏTİ

AZFEN MMC öz işgüzar fəaliyyətində sağlamlıq, əməyin təhlükəsizliyi, təhlükəsizlik və ətraf mühitin mühafizəsinin səmərəli şəkildə idarə olunmasına mühüm əhəmiyyət verir və heç bir qəzaların baş verməyəcəyini, insanlara heç bir zərər dəyməyəcəyini və ətraf mühitə heç bir ziyan vurulmayacağını öhdəsinə götürür və bütün bu sahələrdəki göstəricilərin davamlı yüksəldilməsini qarşısına məqsəd qoyur. AZFEN MMC ətraf mühitin mühafizəsini, öz əməkdaşlarının və fəaliyyət göstərdiyi icmaların sağlamlığını, əməyin təhlükəsizliyini və təhlükəsizliyini təmin etməyi tam öhdəsinə götürür. Bu öhdəliklərə nail olmaq üçün AZFEN MMC:

- Qanunvericilik tələblərini və digər tələbləri, və öz minimum standartı kimi, sağlamlıq, əməyin təhlükəsizliyi, təhlükəsizlik və ətraf mühitin mühafizəsinə dair AZFEN MMC siyasətini yerinə yetirəcək;
- Öz işgüzar qərarlarında sağlamlıq, əməyin təhlükəsizliyi, təhlükəsizlik və ətraf mühit üçün təsirlərin lazımınca nəzərə alındığına əmin olaraq, işgüzar fəaliyyətinin səmərəli şəkildə idarə olunmasının tərkib hissəsi kimi, sağlamlıq, əməyin təhlükəsizliyi, təhlükəsizlik və ətraf mühitin mühafizəsinin idarə olunması üzrə yüksək standartların tətbiqinə davam edəcək;
- AZFEN MMC-nin prinsiplərinə uyğun sağlamlıq, əməyin təhlükəsizliyi, təhlükəsizlik və ətraf mühitin mühafizəsini idarəetmə sistemini işləyib hazırlayacaq, həyata keçirəcək və qoruyub saxlayacaq;
- SƏTTƏM sahəsindəki başlıca məqsədlərinə nail olmağın həlledici şərti kimi, öz işçilərinin Sağlamlıq, Əməyin Təhlükəsizliyi, Təhlükəsizlik və Ətraf Mühitin Mühafizəsi üzrə təlimini və onların bu sahədə maarifləndirilməsini təmin edəcək;
- Risklərin qiymətləndirilməsi və risklərin idarə olunması kimi ciddi bir prosesi həyata keçirəcək;
- Əsasən, aşağıdakıları nəzərdə tutan prosedurları işləyib hazırlayacaq:
    - Təhlükəsiz və sağlamlığa və ətraf mühitə risk yaratmayan avadanlıqlar və iş sistemləri;
    - Məmulatların və maddələrin təyin edilməsi, istifadəsi, yüklənib-boşaldılması, saxlanması və daşınması üçün münasib tədbirlər;
    - Daşınma risklərinin müəyyən edilməsi və idarə olunması;
    - Qida Məhsullarının Təhlükəsizliyi və Peşə Sağlamlığı və Sanitar-Gigiyena Proqramları;
    - İşin təhlükəsiz və lazımi səlahiyyətə malik şəxslər tərəfindən ətraf mühit üçün risksiz yerinə yetirilməsini təmin etmək üçün müvafiq informasiya, təlimat, təlim və nəzarət;
    - Təhlükəsiz və davamlı binalar və iş yerləri, o cümlədən, onlara/onlardan giriş və çıxış; Müvafiq sanitar-məişət obyektləri ilə təmin edilmiş təhlükəsiz, etibarlı və sağlam əmək şəraiti;
    - Hazırlıq, tikinti və sonrakı istismar və layihələrin tamamlanmasından sonrakı texniki xidmət dövrü ərzində təhlükəsiz iş təcrübələrinin nəzərə alındığı, daxil edildiyi və tətbiq olunduğu, və istismar müddəti ərzində ətraf mühitə təsirlərin, o cümlədən, istismardan çıxarılmanın və silinmənin nəzərə alındığı planlar;
    - Bizim ümumi sağlamlıq, əməyin təhlükəsizliyi, təhlükəsizlik və ətraf mühitin mühafizəsi üzrə göstəricilərimizin yüksəldiməsində iştirak etmələrinə imkan yaratmaq üçün, təchizatçılara rəhbərlik edilməsi və onların dəstəklənməsi;
    - Atmosferə, torpağa və suya çirkləndirici maddələrin atılmasının qarşısının alınması;
    - Təbii ehtiyatlardan səmərəli istifadə olunması;
    - İcmalara və ya ətraf mühitə qarşı xoşagəlməz hallara səbəb ola bilən səs-küyə, toza, qoxuya, titrəyişə, nəqliyyatın hərəkətinə və ya digər narahatlıq doğuran hallara və ya ekoloji təsirlərə nəzarət;
    - Tullantıların azaldılması və tullantıların atılmasının, o cümlədən, münasib olduqda utilizasiyasının idarə olunması.
- Sağlamlıq, əməyin təhlükəsizliyi, təhlükəsizlik və ətraf mühitin mühafizəsinin təmini üzrə dəqiq göstəriciləri işləyib hazırlayacaq və gözdən keçirəcək;
- Baş vermiş hadisələrin əsas səbəblərini araşıracaq və onların təkrarlanmasının qarşısını almaq üçün düzəliş tədbirləri görəcək;
- AZFEN MMC -nin bütün işçilərinə və subpodratçılarına məsləhətləşmədə və iştirakda dəstək verərək, onların təhlükəli vəziyyətdə yerinə yetirildiyini aşkar etdikləri, başqalarının sağlamlığına və təhlükəsizliyinə mənfi təsir göstərə bilən və ya ətraf mühit üçün zərərli ola biləcək hər hansı işi dayandırmaq hüququnun icrasında tam dəstəkləyəcək.

AZFEN MMC-nin Layihə Rəhbərləri və Sahə Rəhbərləri bu siyasətin yerinə yetirilməsinə görə ümumi cavabdehlik daşıyırlar və bütün sağlamlıq, əməyin təhlükəsizliyi, təhlükəsizlik və ətraf mühitin mühafizəsi məsələlərinə tam cavabdeh olacaqlar. Bütün işçilər bu siyasətin həyata keçirilməsinə kollektiv və şəxsi məsuliyyət daşıyırlar.



**Həmid Həsənov**

**AZFEN MMC-nin Baş Direktoru**
**Fevral, 2025**